**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**Hüseyn Əhməd oğlu Əhmədzadə**

# "İRAN İSLAM RESPUBLIKASINDA REGIONAL SAHIBKARLIĞIN INKIŞAFININ MALIYYƏ PROBLEMLƏRI"

**İxtisas:** 5308.01 – Ümumi iqtisadiyyat
5310.01 – Dünya iqtisadiyyatı

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir

**Elmi rəhbərlər:** **i.e.d., prof. AMEA-nın müxbir üzvü Ə.X.Nuriyev**
**i.f.d., dos. A.M.Əsədov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru
**Fuad Əlinağı oğlu Qənbərov**

iqtisad üzrə fəlsəfə doktoru
**Şövqü Bəhlul oğlu Quliyev**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrası

Dissertasiya işinin müdafiəsi 13 dekabr 2016-cı il saat 14.00-da AMEA İqtisadiyyat Institutunda fəaliyyət göstərən D.01.181. dissertasiya şurasının iclasında olacaqdır.

**Ünvan:** Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 11 noyabr 2016-cı ildə göndərilmişdir

D.01.181. Dissertasiya Şurasının elmi katibi
iqtisad üzrə fəlsəfə doktoru, dosent F.Q.Musayeva

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı:** Bazar münasibətlərinin inkişaf etdiyi müasir dövrdə hər bir ölkənin sosial-iqtisadi inkişafı sahibkarlığın inkişafından asılıdır. Başqa sözlə desək, sahibkarlığın bu və ya digər istiqamətlərini inkişaf etdirmədən lazımi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan da milli iqtisadiyyatın müxtəlif sahələrində, eləcə də müxtəlif təyinatlı sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi qarşıda duran başlıca vəzifələrdən biri kimi qəbul edilməlidir. Eyni zamanda, İran İslam Respublikası zəngin təbii-iqtisadi resurs ehtiyatlarına malik olan bir ölkədir və bu resurslardan səmərəli istifadənin ən qısa yolu sahibkarlığın inkişafından keçir. Ona görə də, sahibkarlığın inkişafı İranda da qarşıda duran başlıca vəzifə kimi qəbul edilir.

Digər tərəfdən, istər İranda, istərsə də Azərbaycanda regionların inkişaf etdirilməsi dövlətin daxili iqtisadi siyasətinin priorotet istiqamətlərindən birini təşkil edir. Ona görə də ümumilikdə sahibkarlığın inkişafı ilə yanaşı, konkret regionlar üzrə bu inkişafın təmin edilməsi, ayrı-ayrı regionların mövcud potensialının öyrənilməsi və səmərəli şəkildə təsərrüfat dövriyyəsinə cəlb edilməsi xüsusi aktuallıq kəsb edir. Nəzərə alsaq ki, sahibkarlığın inkişafı həm də məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinin ən əlverişli üsullarından biridir, onda regional sahibkarlığın inkişafının sosial-iqtisadi mahiyyəti aydın olar.

Bütün bunlarla yanaşı, məlumdur ki, istənilən ərazidə sahibkarlığın hər hansı bir formasının inkişaf etdirilməsi müvafiq maliyyə qoyuluşu tələb edir. Eyni zamanda, müşahidələr göstərir ki, əksər hallarda sahibkarlığın inkişafı bir sıra maliyyə problemləri ilə qarşılaşır. Ona görə də, sahibkarlığı inkişaf etdirmək üçün əsas məsələlərdən biri də rast gəlinən maliyyə problemlərinin həllidir. Sahibkarlar bir çox hallarda maliyyə çatışmazlığı, bəzən əlverişli olmayan kredit şərtləri bəzən isə əldə edilmiş maliyyə vəsaitlərindən səmərəli istifadə edilməməsi kimi problemlərlə qarşılaşırlar. Oxşar problemlərə isə ayrı-ayrı regionlarda daha çox rast gəlinir. Bu baxımdan da, regional sahibkarlığın inkişafında rast gəlinən maliyyə problemlərinin tədqiq olunması, problemi yaradan səbəblərin aşkara çıxarılması və onların aradan qaldırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması xüsusi aktuallıq kəsb edir.

Məlumdur ki, bazar münasibətləri şəraitində maliyyə təminatı bu və ya digər mənbədən maliyyələşdirilən investisiyalar vasitəsilə ödənilir. İnvestisiyalar isə maliyyələşmə mənbəyindən asılı olaraq daxili və xarici

investisiyalara bölünür. Təbii ki, sahibkar üçün investisiyaların hansı mənbədən cəlb edilməsi, vəsaitlərdən düzgün istifadə kimi məsələlər olduqca mühüm əhəmiyyət kəsb edir. Başqa sözlə desək, hər bir sahibkarı daimi olaraq "hansı mənbədən maliyyə vəsaitləri əldə etməli?" və ya "maliyyə vəsaitlərindən necə səmərəli şəkildə istifadə etməli?" kimi suallar düşündürür. Ona görə də istər ölkədə və ya ayrı-ayrı regionlarda sahibkarlığın inkişafı, istərsə də sahibkarlıq subyektlərinin qarşılaşdırığı maliyyə problemlərinin operativ həlli, bu istiqamətdə sahibkarların maarifləndirilməsi məqsədilə maliyyə problemlərini yaradan səbəblərin və onların aradan qaldırılması yollarının araşdırılması olduqca mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, bütün İslam ölkələrində geniş yayılmış maliyyələşmə mənbələrindən biri də İslam banklarıdır ki, İranda da regional sahibkarlığın inkişafında bu sahə ciddi təsir gücünə malikdir. Ona görə də, daxili və xarici investisiyaların cəlb edilməsi ilə yanaşı, İranda İslam bankçılığının da inkişaf etdirilməsi, bu sahənin imkanlarından düzgün istifadə edərək regional sahibkarlığın maliyyə problemlərinin daha səmərəli şəkildə həlli xüsusi aktuallıq kəsb edir. Bütün bunlar tədqiqat işinin əhəmiyyətini xarakterizə edərək, seçilmiş tədqiqat mövzusunun aktuallığını əsaslandırır.

**Problemin öyrənilməsi səviyyəsi:** Sahibkarlığın kompleks şəkildə öyrənilməsinə və regionlarda sahibkarlığın inkişafı üçün əlverişli maliyyə-kredit mühitinin formalaşdırılması ilə əlaqədar elmi-tədqiqat işlərinə İran İslam Respublikası timsalında ayrıca yer verilməmişdir. Eyni zamanda əlaqədar məsələlərin tədqiqinə bir çox yerli və xarici ölkə alimlərinin əsərlərində rast gəlmək mümkündür. İranlı alimlərdən Əbzəri Mehdi, Səfəri Əli, Məhdəvinia Mösin, Teymuri Hadi, Əsədi Murtiza, Ənsari Əhməd Rza, Behkiş Məhəmməd Mehdi, Xatəmi Humayun, Musəvi Seyidəlirza, Cəvadi Şahin, Nili Məsud, azərbaycanlı alimlərdən Ə.X.Nuriyev, A.F.Musayev, İ.H.Alıyev, R.P.Sultanova, M.M.Sadıqov, Z.S.Məmmədov, A.B.Abbasov, D.Ə.Vəliyev, A.M.Əsədov və başqaları öz əsərlərində regional sahibkarlığın inkişafı, bu sahədə mövcud olan maliyyə problemləri ilə bağlı ayrı-ayrı nəzəri-metodoloji və praktiki məsələlərin tədqiqinə geniş yer vermişlər.

İranda regional sahibkarlığın inkişafı, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, bu məqsədlə regional sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi, regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün əlverişli maliyyə-kredit mühitinin formalaşdırılması, regionlarda sahibkarlığın təşəkkülündə yerli və xarici invetisiyalardan səmərəli istifadəni təmin etmək məqsədilə müvafiq araşdırmaların aparıl-

ması, elmi əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması zəruriliyi tədqiqat mövzusunun çeşilməsinə, eləcə də məqsəd və vəzifələrinin müəyyən edilməsinə əsas vermişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqat işinin əsas məqsədi İran İslam Respublikasında regional sahibkarlığın inkişaf etdirilməsi, bu sahədə qarşıya çıxan maliyyə problemlərinin yaranma səbəblərinin öyrənilməsi, onların səmərəli və operativ şəkildə həlli istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənib hazırlanmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqat zamanı aşağıdakı vəzifələr qarşıya qoyulmuş və ardıcıllıqla yerinə yetirilmişdir:

- sahibkarlığın sosial-iqtisadi mahiyyətinin açılması və milli iqtisadiyyatların inkişafında rolunun əsaslandırılması;
- sahibkarlıq fəaliyyətinin təşkili prinsiplərinin təhlili və ümumiləşdirilməsi;
- regionun investisiya cəlbediciliyinin yüksəldilməsinin nəzəri əsaslarının müəyyənləşdirilməsi;
- İranda sahibkarlığın inkişaf dinamikasının təhlili və qiymətləndirilməsi;
- xarici investisiyaların sahibkarlığın inkişafına təsirinin tədqiqi və bu sahədə müvafiq beynəlxalq təcrübədən istifadə imkanlarının müəyyən edilməsi;
- regional sahibkarlığın inkişafında maliyyə-kredit təşkilatlarının rolunun artırılması istiqamətlərinin müəyyən edilməsi;
- İranda islam bankçılığının inkişaf xüsusiyyətlərinin aşkara çıxarılması;
- Regional sahibkarlığın inkişaf modelinin qurulması;
- İran İslam Respublikasında regional sahibkarlığın inkişafının maliyyə problemlərinin səmərəli və operativ şəkildə aradan qaldırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın obyekti və predmeti**: Tədqiqat obyekti olaraq İran İslam Respublikasının regionlarında fəaliyyət göstərən sahibkarlıq subyektləri seçilmişdir. Tədqiqatın predmetini isə sahibkarlıq subyektləri arasında mövcud olan iqtisadi münasibətlər sistemi, maliyyə-təsərrüfat fəaliyyətinin təhlili və təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**: Tədqiqatın nəzəri-metodoloji əsaslarını İran, Azərbaycan və digər ölkə alimlərinin fundamental tədqiqatlarının nəticələri, iqtisadi nəzəriyyə, dialektikanın

prinsipləri, anlayışları, kateqoriyaları, qanunları onların iqtisadi tədqiqatlarda tətbiqi xüsusiyyətləri təşkil edir. Tədqiqat zamanı sistem yanaşma, induksiya, deduksiya, müqayisəli təhlil və mühakimə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** İranda regional sahibkarlıq subyektlərinin fəaliyyətinin təşkili və idarə edilməsi, normal fəaliyyət mühitinin təmin olunması, regional sahibkarlıq subyektlərinin maliyyə təminatının yaxşılaşdırılması ilə əlaqədar qanunlar, proqramlar və digər normativ-hüquqi sənədlər, eləcə də İran İslam Respublikasının illik statistik məlumatları, o cümlədən əlaqədar nazirlik və təşkilatların müvafiq materialları və müəllifin şəxsi müşahidələri təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- İranda regional sahibkarlığın inkişaf etdirilməsinin regional və ümumi inkişafda əhəmiyyətli rolu elmi cəhətdən əsaslandırılmışdır;
- regional sahibkarlığın maliyyə problemlərini yaradan başlıca səbəblər müəyyən edilmişdir;
- maliyyə problemlərinin regional sahibkarlığa və ümumilikdə sahibkarlıq mühitinə təsir istiqamətləri aydınlaşdırılmışdır;
- İranda regional sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi məqsədilə maliyyə-kredit təşkilatlarının fəaliyyətinin gücləndirilməsi, kredit əldə etmə prosesinin sadələşdirilməsi və s. istiqamətlərdə müvafiq təklif və tövsiyələr işlənib hazırlanmışdır;
- İranda İslam bankçılığının inkişaf etdirilməsi zəruriliyi əsaslandırılmış və bu sahənin inkişafına yönəlmiş təkliflər verilmişdir;
- İranda regional sahibkarlığın inkişaf modeli qurulmuş və modelin əsasında proqnozlaşdırılan göstəricilərin dəqiqlik dərəcəsi göstərilmişdir;
- İranda regional sahibkarlığın maliyyə problemlərinin həlli istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqat işinin əsas nəticələri** ondan ibarətdir ki, tədqiqat zamanı əldə edilmiş nəticələr, eləcə də irəli sürülmüş təklif və tövsiyələr regional sahibkarlığın inkişafı, sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi, regionların investisiya cəlbediciliyinin yüksəldilməsi və s. istiqamətlərdə istifadə edilə bilər. Dissertasiya işinin ayrı-ayrı bölmələrinin nəticə və təklifləri Universitetlərdə müvafiq tədris

proqramlarının hazırlanmasında, eləcə də uyğun proqram, təlimat və digər normativ sənədlərin hazırlanmasında istifadə edilə bilər.

Tədqiqat işinin əsas müddəaları, irəli sürülmüş təklif və tövsiyələr müxtəlif elmi təşkilatlarda keçirilən elmi-praktiki konfranslarda məruzə edilmiş, bəyənilmiş və çap olunmuşdur.

Ümumilikdə tədqiqatın əsas müddəalarını əks etdirən 11 elmi məqalə və tezis müxtəlif elmi jurnallarda, eləcə də konfrans materiallarında çap edilmişdir. O cümlədən, məqalələrdən biri İSİ jurnalda olmaqla, 3 ədədi xaricdə çap edilib.

**İşin quruluşu və həcmi:** Dissertasiya işi giriş, üç fəsil, 9 paraqraf, nəticə və təkliflər, eləcə də istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 145 səhifə həcmindədir.

## Dissertasiya işinin mündəricatı

**Giriş**

**I Fəsli: Regionlarda sahibkarlıq fəaliyyətinin təşkili və maliyyə təminatının nəzəri-metodoloji əsasları**

1.1. Sahibkarlığın sosial-iqtisadi mahiyyəti və milli iqtisadiyyatların inkişafında rolu

1.2. Sahibkarlığın mövcud olması şərtləri və prinsipləri

1.3. Regional investisiya cəlbediciliyinin və maliyyə təminatının nəzəri-metodoloji əsasları

**II Fəsil: Iran Islam Respublikasında regional sahibkarlığın müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi**

2.1. Müasir dövrdə regional sahibkarlığın inkişafına təsir edən amillər

2.2. Regional sahibkarlığın inkişaf etdirilməsinin əsas maliyyə mənbələri

2.3. Iran Islam Respublikasında sahibkarlığın müasir inkişaf səviyyəsinin təhlili və qiymətləndirilməsi

**III Fəsil: Iran Islam Respublikasında regional sahibkarlığın inkişafının maliyyə problemlərinin həlli yolları**

3.1. Regional sahibkarlın inkişafında maliyyə-kredit təşkilatlarının rolunun gücləndirilməsi

3.2. Islam bankçılığının inkişaf etdirilməsi regional sahibkarlığın maliyyələşdirilməsinin mühüm istiqaməti kimi

3.3. Iran Islam Respublikasında regional investisiya cəlbediciliyinin modelləşdirilməsi

**Nəticə və təkliflər**

**İstifadə edilmiş ədəbiyyatlar**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Sahibkarlıq fəaliyyətinin təşkilinin nəzəri-metodoloji əsasları öyrənilmiş, regional sahibkarlığın mahiyyəti aydınlaşdırılmış, təşkili xüsusiyyətləri və prinsipləri müəyyən edilmiş, eləcə də bu sahədə maliyyə problemlərini yaradan səbəblər aşkara çıxarılmışdır**

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, sahibkarlığa bazar iqtisadiyyatının formalaşması və inkişafının ilkin şərti kimi yanaşmaq lazımdır. Sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması formalaşan iqtisadi sistemin xarakterindən, məzmunundan, iqtisadi sistemin məqsədindən və bu məqsədi həyata keçirən resurs təminatından və onların təşkili metodlarından asılı olur. Məhz bunlar son nəticədə sahibkarlığın inkişaf dinamikasını, ona dövlətin himayəsi mexanizmlərini və idarəedilmə strukturlarını formalaşdırır. Sahibkarlığın inkişafı mülkiyyət münasibətlərinin forma və məzmunu ilə əlaqədar dəyişir, yeni sahə və ərazi quruluşuna malik olur. Bu baxımdan da, sahibkarlıq fəailyyətinə ölkənin ümumi iqtisadi inkişafının daxili elementi, həmçinin iqtisadi artımın başlıca faktoru kimi yanaşılmalıdır.

Bütün bunlarla yanaşı, cəmiyyətdə sosial-iqtisadi sabitliyin təmin edilməsi, regional iqtisadi inkişafa nail olunması və s. kimi bir sıra çox mühüm sosial-iqtisadi problemlər də, məhz sahibkarlığın müxtəlif formalarının inkişaf etdirilməsi ilə öz həllini tapa bilər. Bu baxımdan da, inkişaf etmiş dünya ölkələrinin müasir təcrübəsi göstərir ki, sahibkarlığa bazar iqtisadiyyatının formalaşması və inkişafının ilkin şərti kimi yanaşmaq daha məqsədəuyğundur. Sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması isə formalaşan iqtisadi sistemin xarakterindən, məzmunundan, iqtisadi sistemin məqsədindən, bu məqsədi həyata keçirən resurs təminatından və onların təşkili metodlarından asılı olur. Bütün bunlar son nəticədə sahibkarlığın inkişaf dinamikasını, bu sahədə dövlətin tənzimləyici və stimullaşdırıcı mexanizmlərini, əlverişli idarəetmə sistem və strukturlarını formalaşdırır.

Sahibkarlığın bazar iqtisadiyyatının inkişafının ilkin şərti olmasına münasibətdə tədqiqatçılar arasında mövqe birliyi olmasına baxmayaraq onun inkişafının ayrı-ayrı məsələlərinə münasibətdə mövqelərdə fərqlər də vardır. Məsələn, Alman iqtisadçısı V.Zombart sahibkarlığı qarşısında duran məqsədi əsas və asılı məqsədlər olmaqla iki hissəyə bölmüşdür. Onun fikrincə, mənfəət əldə edilməsi sahibkarlıq fəaliyyətinin əsas deyil, ikinci dərəcəli məqsədidir. Bu fəaliyyətin əsas məqsədi isə daimi inkişaf etmək, öz fəaliyyətini genişləndirməkdir. Bu məqsədə çatmaq üçün sahibkar risk etməli, inadkarlıq və inam göstərməli, ümumi mənafe naminə bir çox insanları işə cəlb etməyi bacarmalıdır. Eyni zamanda, Avstriya iqtisadçısı Y.Şumpeterin sahibkarlıq haqda fikirləri də maraqlıdır. Sahibkarı novator adlandıran Şumpeter onun başlıca vəzifəsi kimi istehsal amillərinin yeni kombinasiyasına və beləliklə də, iqtisadi tərəqqiyə nail olmağı əvvəldən görə bilmək, köhnəliyə zidd çıxmaq, yenilik tapıb onu tətbiq etmək, qabaqcadan verilmiş proseslər əsasında deyil, həmin prosesləri özü müəyyən edərək fəaliyyət göstərmək qabiliyyətinin olmasını müəyyələşdirmişdir.

Sahibkarlıq fəaliyyəti haqqında nəzəri baxışların bir istiqamətini də Fransız iqtisadçısı A.Marşalın fikirləri təşkil edir. İqtisadi tədqiqatlarında, o sahibkarlıq fəaliyyətinin araşdırılmasına geniş yer vermişdir. A.Marşal ilk dəfə istehsalın 3 klassik amilləri (torpaq, kapital, əmək) siyahısına dördüncü amili - təşkilati məsələləri də əlavə etmişdir. Sahibkara yeni iqtisadi imkanların axtarıcısı kimi yanaşan ingilis iqtisadçısı, Nobel mükafatı laureatı, F.A.Xayek sahibkarlıq fəaliyyətinə fərqli aspektdən baxmışdır. Onun fikrincə, sahibkarın mənfəət əldə etməsi əsas məqsəd deyildir, başlıca məqsəd yeni-yeni iqtisadi imkanların aşikara çıxarılmasıdır. Ona görə də, sahibkar özü inkişaf etdikcə, ümumilikdə cəmiyyətin inkişafını təmin edir.

Bazar münasibətləri şəraitində sahibkarlığın inkişafı istər ümumilikdə milli iqtisadiyyatın inkişafı, istərsə də ayrı-ayrı regionların inkişafının əsasını təşkil edir. Ona görə də bu sahəninin inkişafına ciddi dəstək verilməsi zəruridir. Araşdırmalardan aydın olur ki, sahibkarlığın, xüsusilə regional sahibkarlığın inkişafına mane olan əsas amillərdən biri də maliyyə problemləri ilə əlaqədardır. Maliyyə problemləri isə özünü, əsasən, maliyyə çatışmazlığı, maliyyə vəsaitlərindən səmərəli istifadə edilməməsi, maliyyə-kredit mühitinin tələbata uyğun olmaması və s.

kimi hallarla ifadə edir ki, bunların da hər birinin yaranma səbəbləri fərqlidir;

Regional sahibkarlığın maliyyə çatışmazlığının başlıca səbəblərindən biri maliyyə-kredit münasibətlərinin mürəkkəbliyindən irəli gəlir. Başqa sözlə desək, bankların və ya bank olmayan təşkilatların təklif etdiyi kreditlər hər bir sahibkarlıq subyekti üçün əlçatan deyildir. Bu baxımdan da, regional sahibkarlığın maliyyə problemlərinin həllində mühüm məsələlərdən biri maliyyə-kredit münasibətlərinin yaxşılaşdırılması, kredit şərtlərinin sadələşdirilməsi və kreditlərin kiçik, orta və iri sahibkarlıq subyektlərinin hər biri üçün əlçatanlığının təmin edilməsidir;

Regional sahibkarlığın maliyyə problemlərinin operativ həlli və dinamik inkişafının mühüm amillərindən biri də regionlarda bazar infrastrukturlarının inkişaf etdirilməsidir. Belə ki, bütün regionların lazımi maliyyə infrastrukturları, marketinq, istehsal, emal, yol-nəqliyyat və s. infrastrukturlar ilə təminatının təkmillədirilməsi regional sahibkarlığın maliyyə problemlərinin operativ həllinin mühüm amili kimi qəbul edilə bilər;

Maliyyə problemlərinin ən çox rast gəlinən forması maliyyə çatışmazlığıdır. Bəzən geniş kredit imkanları olduğu halda da, sahibkar lazımi maliyyə vəsaitini əldə edə bilmir. Burada isə başlıca səbəb girovla bağlıdır. Belə ki, sahibkarlığın ən geniş yayılmış forması olan kiçik sahibkarlıq subyektləri, əksər hallarda girov məsələsində xüsusi çətinliklə qarşılaşırlar. Nəticədə isə, kredit almaq və maliyyə çatışmazlığını aradan qaldırmaq mümkün olmur. Bu baxımdan da, kredit şərtlərinin sadələşdirilməsi, xüsusilə girov məsələlərinə yenidən baxılması çox vacibdir.

**2. İran İslam Respublikasında regional sahibkarlığın inkişafına təsir edən amillər aydınlaşdırılmış, regional sahibkarlığın mövcud vəziyyəti araşdırılmış və əsas maliyyə mənbələri təsnifləşdirilmişdir**

Satistik araşdırmalar göstərir ki, İran İslam Respublikasında ümumilikdə 30 ostan üzrə 26176 ədəd müəssisəyə müvafiq lisenziya verilsə də, faktiki olaraq 7649 ədəd, yəni cəmi müəssisələrin 29,2%-i istehsal fəaliyyəti ilə məşğuldur ki, bunlar da, əsasən Tehran, İsfahan, Xorasan-Rizavi, Yəzd, Markazi, Mazandaran, Buşehr, Gilan və s. Ostanlarda fəaliyyət göstərir. Ən az istehsal müəssisələrinin olduğu Ostanlara isə Kohgiluey-Boyarəhməd, Şimali Xorasan, Cənubi Xorasan, Hormozgan və s. aiddir.

Cədvəl 1

İran İslam Respublikasında Ostanlar üzrə müəssisələr haqqında məlumat (2014-cü il)

| | Ostanlar | Lisenziya verilmiş müəssisələrin ümumi sayı, ədəd | İstehsal fəaliyyəti göstərən müəssisələrin sayı, ədəd |
|---|---|---|---|
| | Cəmi | 26176 | 7649 |
| 1 | Şərqi Azərbaycan | 3192 | 529 |
| 2 | Qərbi Azərbaycan | 1181 | 458 |
| 3 | Ərdəbil | 342 | 130 |
| 4 | İsfahan | 2380 | 803 |
| 5 | İlam | 339 | 147 |
| 6 | Buşehr | 1402 | 787 |
| 7 | Tehran | 2515 | 578 |
| 8 | Çaharmahal-Bəxtiyari | 261 | 148 |
| 9 | Şimali Xorasan | 164 | 61 |
| 10 | Xorasan-Rizavi | 1411 | 565 |
| 11 | Cənubi Xorasan | 274 | 66 |
| 12 | Kuzistan | 1152 | 293 |
| 13 | Zəncan | 810 | 158 |
| 14 | Səmnan | 936 | 189 |
| 15 | Sistan-Baluçestan | 426 | 184 |
| 16 | Fars | 990 | 336 |
| 17 | Qəzvin | 926 | 341 |
| 18 | Qum | 395 | 196 |
| 19 | Kürdistan | 273 | 101 |
| 20 | Kerman | 579 | 233 |
| 21 | Kermanşah | 502 | 114 |
| 22 | Kohgiluey-Boyarəhməd | 227 | 53 |
| 23 | Gülüstan | 449 | 107 |
| 24 | Gilan | 819 | 372 |
| 25 | Lorestan | 408 | 141 |
| 26 | Mazandaran | 1422 | 359 |
| 27 | Markazi | 1385 | 304 |
| 28 | Hormozgan | 317 | 87 |
| 29 | Həmədan | 480 | 151 |
| 30 | Yəzd | 1219 | 367 |

**Mənbə**: "İran Statistical yearbook", 2015-ci il (1387), səh.328

Araşdırmalar göstərir ki, İranda son illər ərzində lisenziya verilmiş müəssisələrin sayı 2,9 dəfə və ya 16994 ədəd artaraq 1996-cı ildəki 9182 ədəddən 2008-ci ildə 26176 ədədə çatmışdır.

Təbii ki, istənilən sahədə inkişafın təmin edilməsi investisiya qoyuluşlarından çox asılıdır. Başqa sözlə desək, lazımi maliyyə təminatı olmadan arzu edilən inkişaf səviyyəsini təmin etmək qeyri-mümkündür.

Cədvəl 2

İranda ayrı-ayrı istehsal sahələri üzrə investisiya qoyuluşları haqqında statistik məlumatlar (2014-cü il, mln. rial)

| Sahələr | İşçi sayına görə qruplar üzrə | | | |
|---|---|---|---|---|
| | Cəmi | 10-49 işçi | 50-99 işçi | 100 və daha çox işçi |
| Cəmi | 58970790 | 5816986 | 4086534 | 49067270 |
| Ərzaq məhsulları və içki istehsalçıları | 5075869 | 1113860 | 1059426 | 2902584 |
| Tütün məmulatı istehsalçıları | 2128 | 0 | 0 | 2128 |
| Toxuculuq məhsulları | 2633309 | 463532 | 810706 | 1359071 |
| Toxuma və dəri geyim əşyaları | 39732 | 12947 | 5973 | 20812 |
| Gön-dəri məmulatları, əl çantaları | 85550 | 34588 | 22112 | 28850 |
| Ağac materialları, koks və çap materialları | 105808 | 46612 | 1909 | 57287 |
| Kağız və kağız məhsulları | 390823 | 81199 | 66682 | 242942 |
| Çap və nəşriyyat | 113416 | 77205 | 14596 | 21615 |
| Koks, emal edilmiş neft məhsulları | 1485103 | 57656 | 7616 | 1419831 |
| Kimyəvi və kimya məhsulları | 17212845 | 478860 | 204642 | 16529343 |
| Rezin və plastik məmulatlar | 2221710 | 610954 | 270805 | 1339951 |
| Qeyri-metal mineral məhsulları | 6566130 | 1269670 | 250792 | 5045668 |
| Əsas metallar | 6996605 | 257269 | 778990 | 5960346 |
| Metallurgiya sahəsi | 1755729 | 773826 | 127680 | 854224 |
| Maşın və mexanizm ləvazimatları | 1377920 | 116353 | 162727 | 1098839 |

| | | | | |
|---|---|---|---|---|
| Ofis avadanlıqları və kompyuter | 39287 | 898 | 3986 | 34403 |
| Elektrik avadanlıq və mexanizmləri | 735290 | 110650 | 105701 | 518940 |
| Radio, televiziya və digər kommunikasiya aparatları | 95760 | 19376 | 7395 | 68989 |
| Tibbi ləvazimatlar, divar və qol saatı | 165551 | 67092 | 27868 | 70591 |
| Motor yasğları və treylerlər | 11204885 | 110928 | 97969 | 10995988 |
| Nəqliyyat avadanlıqları | 520727 | 19928 | 26848 | 473951 |
| Mebel avadanlıqları | 186179 | 89919 | 32111 | 64149 |

**Mənbə:** "İran Statistical Yearbook", 2015, səh.342

Cədvəldə verilmiş məlumatlardan göründüyü kimi, cəmi investisiyaların 9,8%-i 50 nəfərədək işçisi olan kiçik müəssisələrin, 6,9%-i 100 nəfərədək işçinin çalışdığı orta müəssisələrin, 83,2%-i isə 100 nəfərdən çox işçinin çalışdığı iri müəssisələrin payına düşür. Ayrı-ayrı sahələr üzrə müvafiq təhlillər apardıqda aydın olur ki, 8,6%-lə ərzaq məhsulları və içki istehsalçıları, 4,5%-lə toxuculuq məhsulları istehsalçıları, 29,2%-lə kimyəvi və kimya məhsulları istehsalçıları, 2,5%-lə koks, emal edilmiş neft məhsulları istehsalı, 19%-lə motor yasğları və treyler istehsalçıları və s. aparıcı sahələr kimi çıxış edir.

Beləliklə, İranda sahibkarlığın inkişaf dinamikasının təhlilindən bu nəticəyə gəlinir ki, hər iki ölkədə sahibkarlığın inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Eyni zamanda, istər İranda, istərsə də qonşu Azərbaycanda son illər, xüsusilə 2000-ci ildən etibarən sahibkarlıq sürətlə inkişaf etməkdədir. Lakin bu o demək deyildir ki, sahibkarlığın inkişafı üçün potensial imkanlardan tam və səmərəli istifadə təmin edilmişdir.

Cədvəl 3

İİR-sı və bir çox ölkələrdə birbaşa investisiyanın həcmi, milyon dollar

| **Ölkə** | **2000-2005** | **2008** | **2010** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|
| İran | 3 | 482 | 306 | 918 | 317 | 754 |
| Türkiyə | 791 | 1752 | 2785 | 10031 | 19989 | 22029 |
| Pakistan | 463 | 534 | 1118 | 2201 | 4273 | 5333 |
| Hindistan | 1705 | 4585 | 5771 | 7606 | 19662 | 22950 |
| Çin | 30104 | 54505 | 60630 | 72406 | 72715 | 83521 |

**Mənbə:** BMT-nin tədqiqat və inkişaf konfransı, World Investment Raport 2000-2014, UNCTAD

Cədvəldən göründüyü kimi, 1990-2000-ci illərə nisbətən İİR-da xarici investisiyaların həcmi 251,33 dəfə artaraq 2007-ci ildə 754 milyon dollar təşkil etmişdir. O cümlədən, müvafiq dövrdə bu artım Türkiyədə 27,85 dəfə, Pakistanda 11,52 dəfə, Hindistanda 13,46 dəfə, Çində 2,77 dəfə təşkil etmişdir. Bu ölkələr içərisində xarici investisiyaların daha sürətli artımı İran, Türkiyə və Hindistanda hiss olunur. Təbii ki, əvvəlki paraqrafda verilmiş investisiyaya təsir edən amilləri nəzərə aldıqda, aydın olur ki, iqtisasdi sabitliyin, inflyasiyanın cilovlanmasının və ən əsası iş adamları üçün əlverişli şərait yaradılmasının nəticəsidir. Bu şəraitə aşağıdakıları aid etmək olar:

- nəqliyyat xərclərinin aşağı olması ilə yanaşı, dəmir, şose və hava yollarının münasib olması. Yəni inkişaf etmiş, səmərəli və kompleks nəqliyyat xidmətlərinin mövcudluğu;
- maliyyə, bank və sığorta sektorlarının inkişaf etməsi. Dünya standartlarına cavab verən müvafiq sistemin mövcudluğu;
- rabitənin sürətli inkişafı və İKT avadanlıqlarından genişmiqyaslı istifadə;
- texnologiya və sənaye bazarlarının olması, eləcə də sərbəst ticarət zonalarının mövcudluğu;
- Modern imkanlar və münasib həyat şəraiti;
- Əmək-biznes mühitində ingilis dilindən çox istifadə edilməsi. Yəni8 hər kəsin eyni dildə ünsiyyət qurmaq imkanı və bacarığı;

Araşdırmalardan belə nəticəyə gəlinir ki, ölkədə özəl sektorun maliyyə təminatının ödənilməsində vacib istiqamətlərdən biri də xarici investisiyalardır. Nəzərdən keçirilən xarici ölkələrin təcrübəsi də sübut edir ki, xarici investisiyaları cəlb etmədən ölkənin inkişaf strategiyasını tamamilə reallaşdırmaq mümkün deyildir. Ona görə ki, xarici investisiyaların cəlb olunması, həm də qlobal məkana inteqrasiyanın zəruri istiqaməti kimi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan da, sahibkarlığa müsbət təsirləri ilə yanaşı, xarici investisiyalar bir inteqrasiya vasitəsi kimi də diqqəti cəlb edir.

Regional sahibkarlığın maliyyə problemlərinin operativ həllinin vacib amillərindən biri də marketinq institutunun inkişaf etdirilməsidir. Belə ki, bəzən maliyə vəsaitləri təklif edənlə maliyyə çatışmazlığı problemi yaşayan subyekt biri-birindən tamamilə xəbərsiz olur. Marketinq araşdırmaları isə, kredit təşkilatı ilə sahibkarlıq subyektinin görüşünü asanlıqla təmin edə bilər ki, bu da nəticədə regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə problemlərinin həllinə kömək edə bilər;

Regional sahibkarlıq subyektinin əsas maliyyə mənbəyi, təbii ki, ilk növbədə regionun özünün maliyyə potensialıdır. Başqa sözlə desək, bazar münasibətləri şəraitində bu prosesi biri-birini tamamlayır. Belə ki, sahibkarların vergi və digər ödənişləri regionun maliyyə imkanlarını formalaşdırır, eyni zamanda, regionun maliyyə potensialı sahibkarlara kredit və ya digər şəkildə qaytarılır. Bu formada proses biri-birini tamamlasa da, regional sahibkarlığın maliyyə problemlərinin həllində regionun maliyyə potensialı daha önəmli xarakterə malikdir;

**3. İran İslam Respublikasında regional maliyyə problemlərinin həlli, maliyyə təminatının yaxşılaşdırılması və maliyyə mənbələrinin genişləndirilməsinə aid təkliflər verilmişdir**

Aydındır ki, müvafiq kredit münasibətlərini təkmilləşdirmədən, kreditləşdirmə proseslərini sadələşdirmədən, kreditlərin hər bir təsərrüfat subyekti üçün əlçatanlığını təmin etmədən, eləcə də hər bir ucqar regionlara qədər kreditləşdirmə təşkilatlarını, müvafiq infrastrukturları inkişaf etdirmədən regional sahibkarlığın arzu edilən inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Tədqiqat işində qeyd edilən istiqamətlərin inkişaf etdirilməsinin zəruriliyi elmi cəhətdən əsaslandırılmış, müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür. Bu fəsildə, həm də islam bankçılığı regional sahibkarlığın əsas maliyyə mənbəyi kimi tədqiq edilmişdir. Belə ki, islam bankçılığının faizi inkar etməsi, bank haqqını fəaliyyətin nəticəsindən tutması və s. kimi xüsusiyyətləri təsərrüfat subyektini müəyyən risklərdən azad edir ki, bu da daha əlverişlidir. Məhz, bu xüsusiyyətlərə əsaslanaraq, işdə islam bankçılığının inkişaf etdirilməsi istiqamətində müəyyən təklif və tövsiyələr irəli sürülmüşdür.

Dünya təcrübəsi də sübut edir ki, əksər Şərq ölkələrində geniş yayılmış bankçılıq formalarından biri də islam bankçılığıdır. İslam bankı faizi inkar etməklə daha stimullaşdırıcı təsir bağışlayır. Eyni zamanda, burada dini dəyərlərin də üstün olması daha cəlbedici görünürür. Bunları nəzərə alaraq, İranda İslam bankçılığının sürətli və genişmiqyaslı inkişafının dəstəklənməsi vacibdir.

Araşdırmalar göstərir ki, istər regionlarda, istərsə də ümumilikdə ölkədə sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsinin əsas mənbələrindən biri də xarici investisiyalardır. Təcrübədən də aydın olur ki, hansı ölkədə ki, xarici investisiyalar daha çox cəlb edilir, orada sahibkarlar daha az maliyyə prob-lemləri ilə qarşılaşırlar. Bu baxımdan da, İran iqtisadiyyatına daha iri həcmli və genişmiqyaslı xarici investisiyaların cəlb olunması istiqamətində müvafiq addımlar atılması zəruridir.

Maliyyə probleminin həllinin əsas amillərindən biri də regionun inves-tisiya cəlbedicliyinin yüksəldilməsidir. Belə ki, ayrı-ayrı regionlar üzrə onların yerli şəraitinə uyğun daha stimullaşdırıcı şərtlərin müəyyənləşdirilməsi və irəli sürülməsi məqsə-dəuy-ğun olardı. Bunun üçün ayrı-ayrı regionların müqayisəli üstünlüyə malik olduğu istiqamətlərin aydınlaşdırılması, regionun inkişaf perspektivləri və prioritetlərinin aydınlaşdırılması vacibdir. Sonrakı mərhələdə isə, cəlb edilmiş vəsaitlərin bu perspektivə uyğun yönləndirilməsi məqsədəuyğun olardı.

Xarici investisiyaların cəlb edilməsi ilə maliyyə problemlərinin həllinin mühüm məsələlərindən biri də dövlətin bu prosesdə birbaşa və ya dolayısı ilə iştirakı məsələsidir. Belə ki, əksər hallarda xarici investisiyalar müəyyən zəmanət tələbi irəli sürür. Bu baxımdan da, inkişafı daha vacib hesab edilən region və ya sahələr üzrə investisiyalara dövlət zəmanətinin verilməsi məqsədəuyğun olardı.

Regional sahibkarlığın maliyyə problemlərinin həllinin bir yolu da sahibkarlıq subyektlərinin özünün investisiya qoyuluşunda həvəsləndiril-məsidir. Belə ki, dövlətin bu istiqamətdə müəyyən güzəştlər, qərarlar qəbul etməklə gələcək inkişafa yönəldilmiş xərclərin vergi və ya digər ödənişlərdən azad edilməsi və s. kimi təkliflər verməklə müəyyən stimullaşdırıcı addımlar atması olduqca zəruridir.

Maliyyə problemləri, xüsusilə regional sahibkarlıq subyektləri üçün digər çətinliklər də yaradır. Belə ki, maliyyə problemi ilə qarşılaşmış regional sahibkarlıq subyekti lazımi bazarlara çıxmaqda çətinlik çəkir, xammal əldə edə bilmir, hazır məhsulu sata bilmir, nəticədə müflisləşir. Ona görə də, dövlətin bəzən alıcı rolunda çıxış etməsi də məqsədəuyğun olardı. Bununla da sahibkarlıq subyekti öz istehsal və xidmətinin nəticəsini reallaşdırmaqla, maliyyə problemini də aradan qaldıra bilər.

Müşahaidələr göstərir ki, bəzən maliyyə problemləri vəsaitlərin düzgün xərclənməməsindən də yaranır. Belə ki, vəsaitlərin düzgün bölüşdürül-məməsi və qeyri-səmərəli istifadəsi, nəticədə maliyyə problemlərinin yaran-masına səbəb olur. Bu baxımdan da, sahibkarlıq subyektlərinin müvafiq biznes plan əsasında hərəkəti daha məqsədəuyğun olardı. Başqa sözlə desək, biznes-planın hazırlanması sahibkarlıq fəaliyyətinin təşkilinin ayrılmaz tərkib hissəsi kimi qəbul edilməlidir. Bu planda, perspektiv addımlar və onların maliyyələşmə mənbələri konkret göstərilir ki, bu da nəticədə vəsaitlərdən daha səmərəli istifadəyə imkan verər və maliyyə problemlərinin yaranmasına mane ola bilər.

**4. Tədqiqat zamanı ən kiçik kvadratlar, Diki Fulerin "Vahid Kök testi", MacKinon və s. üsullardan istifadə edilərək regional sahibkarlığın maliyyə təminatının yaxşılaşdırılması məqsədilə İran İslam Respublikasında regional investisiya cəlbediciliyinin yüksəldilməsinin iqtisadi-riyazi modeli işlənib hazırlanmışdır.**

Bu tədqiqdə xarici investisiyaya təsir göstərən faktorların ən kiçik kvadratlar reqressiya modeli ilə təxmin və analiz etməyə cəhd göstərilib. Tədqiqin əsas dəyişənləri aşağıdakı şəkildə təqdim olunur:

Tabeli dəyişən: birbaşa xarici investisiya

Müstəqil dəyişənlər:

1- Ümum daxili məhsul (ÜDM)

2- Daxili investisiya: daxili investisiya miqdarı xalqın iqtisadiyyatın gələcəyinə olan inamını və peşəyə olan təmayülünün əks olunmasıdır. Həmçinin, bu dəyişən, ölkədə investisiya mühitindən məlumat təqdim edir. Beləliklə, daxili investisiya birbaşa xarici investisiya axımının səviyyəsinin dəyişkənliyini izah edən bir müstəqil dəyişən kimi istifadə edilir.

3- Investisiya riskinin miqdarı: investisiya ilə məşğul olan transmilli şirkətlər, ölkə təhlükələri ilə o cümlədən- siyasi, maliyyə və iqtisadi təhlükələrlə qarşı-qarşıyadırlar. Ölkə riski baxımından, bu risk siyasi risk, iqtisadi riski və ya maliyyə riski amillərindən törəyə bilər. Inflyasiya da iqtisadi təhlükələr cərgəsinə daxildir.

4- Insani kapital: insan gücü kapitalı orta məktəb illərinin orta faizi şəklində hesablanır.

Iqtisadiyyatın dünya iqtisadiyyatına olan açıqlıq dərəcəsi (mübadilələrin qiyməti): Iqtisadiyyatın dünya iqtisadiyyatına olan açıqlıq dərəcəsi əldə etmək üçün idxalat və ixracat cəminin ümum daxili məhsula olan nisbətindən istifadə edilir.

Ən kiçik kvadratlar üsulunun mahiyyəti onun adından göründüyü kimi ölçmə nəticəsində əldə olunan qiymətlər və gözlənilən qiymətlər arasındakı fərqin (xətanın) kvadratının minimal olmasına əsaslanır. Yaxınlaşma zamanı funksiyanın modelini elə seçirlər ki, onun verdiyi qiymətlər ilə ölçmə nəticəsində alınmış qiymətlər arasında olan fərqlər kvadratlarının cəmi də minimum olsun.

Tutaq ki, $x$— $m$naməlum parametrlərin toplumdur, $f_i(x)$, $i = 1, \ldots, n$, $n > m$isə bu toplumların funksiyalar cəmidir. Məslənin həlli ona gətirilir ki, x-in qiymətlərinin təyini zamanı bu funksiyaların qiymətləri $y_i$-in verilən qiymətlərinə yaxın olsun. Əslində

$f_i(x) = y_i,\ i = 1, \ldots, n$ tənliklər sisteminin elə həlli axtraılır ki, onun sağ və sol tərəfləri maksimal yaxınlaşsınlar. Ən kiçik kvadratlar üsulu ona gətirir ki, sağ və sol tərələrinin arasındakı meyillənmənin kvadratlarının $|f_i(x) - y_i|$ yaxınlaşması baş versin. Beləliklə ən kiçik kvadratlar üsulunu aşağıdakı şəkildə yazmaq olar:

$$\sum_i e_i^2 = \sum_i (y_i - f_i(x))^2 \rightarrow \min_x .$$

Tənliklr siiseminin həlli varsa, kvadatların cəmi sıfıra bərabr olacaq və tənliklər sistemlərinin həlli analitik və ya ədədi üsullarla aparıla bilər. Əgər sistem təyin olunandırsa, yəni asılı olmayan tənliklərin sayı axtarılan dəyişənlərin sayından çoxdursa, onda sistemin dəqiq həlli mövcud deyil. Bu halda ən kiçik kvadratlar üsulu y və f(x) vektorlarnın maksimal yaxnlaşması və meyillənmənin (e) sıfıra yaxınlaşmasına imkan verən hər hansı optimal x-vektorunun tapılmasına imkan yaradır. Bunun üçün reqressiya analizi tələb edilir.



Təsvir edilmiş verilənlərin xətti reqressiyası

Araşdırılan prosesə misal kimi mexaniki emalda kəsmə qüvvəsinin dəyişməsi (asılı olan dəyişən) ilə prosesin gedişini müəyyənləşdirən kəsmə parametrləri (asılı olmayan dəyişən) arasındakı asılılığın təyinini göstərmək olar. Dəyişənlər arasındakı münasibət birölçülü halda

$y = f(x) + e$, formada,

n-ölçülü halda isə

$y = f(x_1, x_2, \ldots, x_n) + e$

formada axtarılır. Burada y asılı olan dəyişən (parametr), x isə asılı olmayan dəyişənlərdir (parametrlər). f axtarılan və ya qəbul olunmuş funksiyadır. e ilə xətanı təsvir edirlər. Reqressiya analizi nəticəsində axtarılan funksiya e qiymətinin minimumunu verməlidir. Axtrılan funksiyanın seçilməsi üçün ilkin məlumat ölçmə nəticələrinin paylanma diaqramından almaq olur.

Funksiyaların tapılması iki yolla aparılır: xətti reqressiya, məntiqi reqressiya və robust reqresiya. Xətti reqressiya zamanı modell asılı olan dəyişən asılı olmayan dəyişənlərin xətti komninasiyası şəklində təşkil olunur. Məsələn, ən sadə xətti reqressiya bir x dəyişənindən asılılığı belə modelləşdirir:

$$y = \beta_0 + \beta_1 x + e.$$

burada β xətti düsturun əmsallarıdır.

Məntiqi reqressiya baş verən hadisənin məntiqi əyriyə uyğunlaşdırılması yolu ilə yaranma ehtimalının əvvəlcədən aşkar edilməsi üçün tətbiq olunan statistik üsuldur. Əvvəlcədən proqnoz etmək hadisənin bir neçə göstəricisinin qiymətləri əsasında aparılır. Bunun üçün məntiqi olaraq "0" və ya "1" qiymətlərin ala bilən asılı dəyişən (y) və göstəricilər çoxluğundan ibarət asılı olmayan dəyişənlər (x1,x2,...,xn,) daxil edilir. Bunların əsasında asılı olan dəyişənin bu və ya digər qiymət alması ehtimalı tapılır. Ümumilikdə isə reqressiya təhlilinin əsas məqsədi:

- Kriterial dəyişənlərin prediktorlar vasitəsi ilə variasiyalarının determinasiya dərəcəsinin müəyyən edilməsi;
- Asılı olmayan dəyişənlərin köməyi ilə asılı dəyişənlərin qiymətlərinin əvvəlcədən müəyyən edilməsi;
- Asılı dəyişənlərin variasiyalarında asılı olmayan dəyişənlərin töhfələrinin təyin edilməsindən ibarətdir.

Aparılan araşdırma və təhlillərin nəticəsi olaraq regional investisiyaların cəlbediciliyinin yüksəldilməsinin müvafiq modeli təklif edilmişdir. Eyni zamanda, müxtəlif testlər vasitəsilə modelin etibarlılıq dərəcəsi yoxlanılaraq tətbiqinin mümkünlüyü əsaslandırılmışdır.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. "İslam bankı və onun səciyyəvi xüsusiyyətləri". "Kooperasiya - tarix və reallıqlar" (Məqalər və tezislər toplusu), Bakı, AKU, 2008, səh.183-188;

2. “İran İslam Respublikasında sahibkarlığın inkişafının maliyyə problemləri”. AMEA, İİ, Elmi əsərlər, 2009, №3, səh. 111-115;

3. “İran İslam Respublikasında özəl sektora investisiya qoyuluşu problemləri”. AMEA, İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2009, №4, səh. 61-65;

4. “İnvestisiya qoyuluşlarının iqtisadi inkişafa təsirinin modelləşdirilməsi”. AMEA, İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2010, №2, səh.66-71;

5. «Проблемы инвестиционных вложений в отрасли ненефтяного сектора». Москва, “Проблемы экономики”, 2010, №1, стр.157-161;

6. “İnvestisiya qoyuluşlarının regional sahibkarlığın inkişafına təsiri”. AMEA, İİ, “Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri, 2010, səh. 477-478;

7. “Sahibkarlığın inkişaf etdirilməsində İslam bankçılığının rolu (İran İslam Respublikası timsalında)”. “Ümummilli lider H.Əliyevin 88-ci ildönümünə həsr edilmiş “Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri” mövzusunda konfrans, AU, 4-5 may 2011, səh. 144-146;

8. “Regionlarda sahibkarlığın inkişafına investisiya qoyuluşları”. “İpək yolu” jurnalı, AU, 2010, №4, səh.38-42;

9. “Sahibkarlığın inkişaf etdirilməsi maliyyə-kredit siyasətinin makroiqtisadi məqsədi kimi”. “Milli iqtisadiyyatın modernləşməsi: mövcud vəziyyət və gələcək perspektivlər”, Bakı, AMEA İİ, 11.03.2011, səh.136-137;

10. «Роль Исламского банкирство в развитии предпринимательства в ненефтяном секторе Ирана». Москва, «Наука и Бизнес: пути развития», 2012, №1(07), стр.70-74;

11. “Financial market development, FDI and economic growth in Iran”. Journal of Basic and Applied Scientific Research-Text Road Publication, America, №2(1)228-230, 2012,

**Гусейн Ахмед оглы Ахмедзаде**

## Финансовые проблемы развития регионального предпринимательства в Иранской Исламской Республике

### Резюме

Предоставленная диссертационная работа состоит из введения, трех глав, резюме и списка исполь-зованной литературы. В введении разъя-снены актуальность исследо-вания, уровень, объект и предмет изучения темы, теоретически-методологические основы исследования, научная новизна, а также теоретическое и практическое значение.

В первой главе диссертационной работы под названием «Теоретически-методологические основы развития предпринимательской деятельности в регионах» разъяснены социально-экономическая сущность предпринимательства и его роль в экономическом прогрессе, исследо-ваны теоретически-методологические основы и принципы развития предпринимательской деятельности, теоретически-методологические основы повышения региональных инвестиций и установлены факторы, влияющие на развитие регионального предпринимательства.

Исследования во второй главе под названием «Анализ и оценивание финансового состояния современного предпринимательства в Иранской Исламской Республике» охватывают сравнительный анализ дина-мики развития предпринимательства в Иране, влияние зарубежных ин-вестиций на предпринимательство и вопросы пользования ими.

Третья глава исследования называется «Пути решения финансовых проблем развития регионального предпринимательства в Иранской Исламской Республике», здесь разъяснены повышение роли финансо-во-кредитных организаций в развитии регионального предпринима-тельства в Иране, развитие Исламского банка в стране и моделирование развития регионального предпринимательства. В данной главе автор с помощью экономически-математического метода разработал соответ-ствующую модель развития регионального предпринимательства.

Диссертационная работа охватывает довольно актуальные вопросы, автор приобрел результаты, обладающие теоретически-практическое значение. Одновременно, приобретенные результаты отражаются в 11-ты научных сочинениях.

**Ahmadzade Huseyn Ahmad**

# Financial problems of regional entrepreneurship development in Islamic Republic of Iran

## Summary

Thesis submitted is consisted of an introduction, three chapters, conclusion and bibliography. The relevance of the study, study level of topic, object and subject, the theoretical and methodological basis of the study, scientific innovation, as well as theoretical and practical importance was explained in Introduction.

Socio-economic essence of entrepreneurship and its role in economic progress was explained, the theoretical and methodological basis and principles for the organization of business activity, theoretical and methodological basis for increasing regional investments were studied, the factors that influence the development of regional entrepreneurship were defined in first chapter named "The theoretical and methodological basis for the organization of business activity in regions" of dissertation.

Researches cover issues like the comparative analysis of the dynamics of the development of entrepreneurship in Iran, the impact of foreign invest-ment to enterprises and its usage in second chapter named "Analysis and evaluation of the financial condition of the modern enterprise in Islamic Republic of Iran" of dissertation.

Researches cover issues like development of regional entrepreneurship in Iran, increasing the role of financial institutions, the development of Islamic banking in the country and the modeling of regional entrepreneurship development in third chapter named "The ways of solution for Financial problems of regional entrepreneurship development in Islamic Republic of Iran" of dissertation. In this chapter, an author developed the model of regional entrepreneurship development with the help of economic and mathematical methods.

Dissertation covered very pressing issues and author gained theoretically and practically important results. At the same time, gained results were reflected in 11 scientific works.

Əla növ kağız, formatı 60x84 -$^{1}/_{16}$
Tiraj 100 nüsxə